1_Layout 1 30.05.2022 11:34 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*
**İlham ƏLİYEV**


# ƏSGƏR

№ 11 (625)

1 iyun
2022-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti


# SÜLH DANIŞIQLARI AZƏRBAYCANIN ŞƏRTLƏRİ ƏSASINDA APARILACAQ

**“Azərbaycan” qəzetinin müxbiri Rəşad Cəfərlinin müəllifi olduğu “Sülh danışıqları Azərbaycanın şərtləri əsasında aparılacaq” başlıqlı məqalənin ictimai aktuallığını nəzərə alaraq ixtisarla oxucularımıza təqdim edirik.**



### İlham Əliyev Ermənistanı öhdəliklərini yerinə yetirməyə məcbur edir

Prezident İlham Əliyev, Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel və Ermənistanın baş naziri Nikol Paşinyan arasında mayın 22-də “Brüssel prosesi” çərçivəsində növbəti üçtərəfli görüş keçirildi. Görüşün yekunlarına dair Şarl Mişelin mətbuata verdiyi açıqlamalar göstərir ki, ötən ilin dekabrından başlamış bu prosesin müzakirə mövzusu olan bütün məsələlər regionda yaranmış yeni reallıqların prinsiplərini özündə ehtiva etməklə Azərbaycanın milli maraqlarına tam uyğundur.

### Aİ-nin təşəbbüsləri Azərbaycanın mövqeyi ilə uzlaşır

Bu görüş bir daha təsdiq etdi ki, Aİ-nin dəstəyi və təşəbbüsləri ilə Azərbaycanla Ermənistan arasında birbaşa danışıqları nəzərdə tutan yeni mexanizm və format müəyyənləşib. Bu isə hələ müharibədən əvvəl mövcud olmuş formatlarla müqayisədə obyektivdir. Bu baxımdan Aİ Şurası prezidentinin münasibəti bir vaxtlar Minsk qrupunun həmsədrlərinin ortaya qoyduqları mövqedən tamamilə fərqlənir və real nəticənin əldə olunmasına hesablanıb.

Elə buna görə də üçtərəfli görüşdən əvvəl Prezident İlham Əliyevlə Şarl Mişel arasında keçirilən təkbətək görüşdə dövlətimizin başçısı Aİ Şurası prezidentinin Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin hazırlanması, iki ölkənin münasibətlərinin normallaşdırılması, nəqliyyat dəhlizlərinin açılması, sərhədlərin delimitasiyası və demarkasiyası proseslərinə verdiyi dəstəyi yüksək qiymətləndirdi.

Aİ Şurası prezidentinin üçtərəfli görüşlərdən sonra verdiyi bəyanatların məzmunu bir vaxtlar Minsk qrupunun həmsədrlərinin hər addımda ortaya qoyduqları ikili standartlardan uzaqdır və münasibətlərin normallaşdırılması üçün konkret hədəfləri ehtiva edir. Bu da Aİ-nin timsalında Azərbaycanla Ermənistan arasında sülhün təmin olunmasına hesablanmış vasitəçilik missiyasına olan etimadı təmin edən mühüm amildir. Brüssel formatında aparılan müzakirələrdə Avropa İttifaqının ortaya qoyduğu mövqe Azərbaycanın regionda təhlükəsizliyin və rifahın təmin edilməsinə hesablanmış təşəbbüsləri ilə uzlaşır.

### İndi Minsk qrupunun dövranı deyil

Məlum olduğu kimi, aprelin 6-da keçirilmiş görüşün nəticələrinə uyğun olaraq, Azərbaycan sülh müqaviləsi üzrə danışıqlara başlamaq üçün İşçi qrupunun tərkibini, həmçinin, sərhədlərin delimitasiyası üzrə milli komissiyanın tərkibini müəyyənləşdirib və bu xüsusda danışıqlara hazır olduğunu bildirib.

Lakin Ermənistan tərəfdən aprelin 6-dan sonra əldə olunmuş razılaşmalara uyğun olaraq heç bir addım atılmadı. Aprelin 6-da Brüsseldə əldə olunan razılaşmaya görə, tərəflər arasında müvafiq görüşlər keçirilməli idi. Ermənistan sərhədlərin delimitasiyasına dair ilk görüşün iki ölkənin sərhədində keçirilməsi barədə təklif irəli sürmüşdü, Azərbaycan da bu təklifi dəstəkləmişdi. Amma Ermənistan artıq aprelin 29-na razılaşdırılmış görüşü ləğv etdi, daha sonra isə 7-11 may tarixlərində sərhəddə yeni görüşün keçirilməsi barədə razılaşmanı icra etmədi.

Ona görə gözlənilən idi ki, bu məsələ Brüsseldə xüsusi müzakirə olunacaq və ilk növbədə Ermənistan rəhbərliyindən bütün bunlara aydınlıq gətirilməsi tələb ediləcək. İndi Minsk qrupunun dövranı deyil. Aİ-nin vasitəçiliyi ilə aparılan danışıqlar isə Ermənistana verilən son şansdır. Əks təqdirdə itirən yenə Ermənistan olacaq.

### İrəvanın prosesləri ləngitmək cəhdləri iflasa uğradı

Budəfəki üçtərəfli görüşdə də tərəflərin razılaşdıqları bütün məsələlər “Brüssel prosesi”nin Azərbaycanın milli maraq və mənafelərinə uyğun getdiyini göstərdi. Məsələn, görüşdə Ermənistanın hələ 10 noyabr bəyanatında üzərinə götürdüyü öhdəliyə uyğun olaraq kommunikasiya ilə əlaqədar nəqliyyat əlaqələrinin açılması istiqamətində işlərin davam etdirilməsi zərurətindən bəhs olunub. Tərəflər Azərbaycanın qərb hissəsi ilə Naxçıvan arasında tranzitləri, habelə hər iki ölkənin kommunikasiya infrastrukturu vasitəsilə beynəlxalq nəqliyyat daşımalarını tənzimləyəcək prinsiplər üzərində razılığa gəliblər. Beynəlxalq daşımalar kontekstində sərhəd idarəetmə prinsipləri, təhlükəsizlik, eləcə də gömrük rüsumları və qaydaları barədə də razılığa gəlinib və yaxın günlərdə baş nazirlərin müavinləri bu işi davam etdirəcəklər.

Əldə olunan razılıqlardan biri də dövlətlərarası münasibətləri tənzimləyən gələcək sülh müqaviləsinə dair müzakirədir. Yaxın həftələrdə xarici işlər nazirlərinin başçılıq etdikləri nümayəndə heyətləri bu prosesi davam etdirəcəklər.

Aİ Şurasının prezidenti mətbuata açıqlamasında Ermənistanın son günlər yenidən qabartdığı status məsələsinə toxunmadı. Qarabağdakı mülki ermənilərin təhlükəsizliyinə isə Azərbaycan dövləti zəmanət verir. Bu baxımdan üçüncü görüş bir daha təsdiq etdi ki, Aİ Azərbaycanın yaratdığı yeni reallıqları bölüşür və “Brüssel prosesi” Bakının mövqeyinə və mənafeyinə uyğundur. Azərbaycanın növbəti siyasi-diplomatik uğuru olan üçüncü Brüssel görüşü həm də onu təsdiq etdi ki, Ermənistanın müxtəlif iddialarla üçtərəfli razılaşmaların tələb etdiyi prosesləri ləngitmək cəhdləri iflasa məhkumdur.

# DAXİLİ İŞLƏR NAZİRİ VİLAYƏT EYVAZOV NÖVBƏTİ VƏTƏNDAŞ QƏBULU KEÇİRİB



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən, mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin respublikanın bölgələrində vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov mayın 24-25-də Quba Rayon Polis Şöbəsində növbəti qəbul keçirib.

Daxili işlər naziri əvvəlcə Quba şəhərindəki Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edərək əziz xatirəsini böyük hörmət və ehtiramla yad edib, önünə gül dəstəsi qoyub.

Sonra Rayon Polis Şöbəsinin inzibati binasında Quba, Qusar, Şabran, Siyəzən, Xızı, Xaçmaz rayonlarından gələn 72 vətəndaşı qəbul edən nazir onların müraciətlərini dinləyib, problemlərinin həlli üçün nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə tapşırıqlar verib.

Müraciətlərin əksəriyyəti yerindəcə həllini tapıb.

Qəbula gələn vətəndaşlar onlara göstərilən diqqət və qayğıya, dövlət qurumlarının rəhbərləri tərəfindən ərizə və müraciətlərinə operativ yanaşılmasına görə ölkə Prezidentinə minnətdarlıq ediblər.

Daha sonra general-polkovnik V.Eyvazov şimal bölgəsi üzrə polis orqanlarında sıravi və kiçik rəis heyətinə xidmətə qəbulla bağlı sıra baxışı keçirib.

Sıra baxışında ətraf rayonlarda yaşayan, polis orqanlarında xidmət etmək arzusunda olan gənclər iştirak ediblər. Xidmətə qəbulun şərtlərinə uyğun gələn 101 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb ki, onlardan da 37-si Vətən müharibəsi iştirakçısı, 7-si isə şəhid ailələrinin üzvləri olublar.

Sonda Daxili işlər naziri, general-polkovnik V.Eyvazov qeyd olunan rayonların polis rəislərinə ictimai asayişin qorunmasında, cinayətkarlığa qarşı mübarizədə daha effektiv tədbirlərin tətbiqi, vətəndaşların müraciətlərinə operativ və obyektiv baxılmasına dair tapşırıqlarını verib.

**DİN-in Mətbuat xidməti**





2_Layout 1 30.05.2022 11:57 Page 1



# 28 MAY MÜSTƏQİLLİK GÜNÜDÜR

28 May Müstəqillik Günü Azərbaycan xalqının tarixində ən şanlı və parlaq səhifələrdən biridir. Yüz dörd il bundan əvvəl - 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması ölkəmizin, xalqımızın həyatına böyük tarixi hadisə kimi daxil oldu. Şərqdə ilk demokratik dövlət quruluşu kimi yaranmış Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın müstəqillik tarixinin başlanğıcı olmaqla milli dövlətçilk salnaməsini müstəsna dərəcədə zənginləşdirib.

28 May Müstəqillik Günü Azərbaycan Xalq Cümhuriyyətinin əsasının qoyulduğu gündür. Yeni qurulan Azərbaycan Xalq Cümhuriyyəti öz üzərinə götürdüyü çətin tarixi vəzifəni imkanlarının ən son həddində çalışaraq şərəflə yerinə yetirdi. Azərbaycanın ilk Parlamenti və Hökuməti, dövlət aparatı təşkil edildi, ölkənin sərhədləri müəyyənləşdirildi, bayrağı, himni və gerbi yaradıldı, ana dili dövlət dili elan olundu, dövlət quruculuğu sahəsində ciddi tədbirlər həyata keçirildi. Ölkənin ərazi bütövlüyü və milli təhlükəsizliyi təmin edildi, qısa müddətdə yüksək döyüş qabiliyyətli hərbi hissələr yaradıldı, milli tələblərə və demokratik prinsiplərə uyğun dövlət orqanları quruldu, maarifin və mədəniyyətin inkişafına xüsusi diqqət yetirildi, Azərbaycanın ilk universiteti təsis olundu, təhsil milliləşdirildi, xalqın sonrakı illərdə mədəni yüksəlişi üçün zəmin hazırlayan, ictimai fikir tarixi baxımından müstəsna əhəmiyyətli işlər görüldü.



Mövcudluğunun ilk günlərindən xalq hakimiyyəti və insanların bərabərliyi prinsiplərinə əsaslanan Azərbaycan Xalq Cümhuriyyəti bütün ölkə vətəndaşlarına eyni hüquqlar verərək irqi, milli, dini, sinfi bərabərsizliyi ortadan qaldırdı. Cümhuriyyət parlamentinin ilyarımlıq fəaliyyəti boyunca qəbul etdiyi qanunlar milli dövlətin müstəqilliyinin möhkəmləndirilməsinə, siyasi və iqtisadi inkişafına, mədəniyyət və maarif sahələrində sürətli irəliləyişinə imkan verdi. Dünya birliyi tərəfindən tanınmış Xalq Cümhuriyyətinin fəaliyyəti sayəsində Azərbaycanın beynəlxalq hüququn subyekti olması 1920-ci ilin aprel ayındakı bolşevik işğalından sonra Azərbaycanın bir dövlət kimi dünyanın siyasi xəritəsindən silinməsinin qarşısını aldı.

Uzun müddət, yəni sovet dövründə Azərbaycan Xalq Cümhuriyyətinin yaradıcıları və onların fəaliyyəti qadağan olunub. İş o yerə gəlib çıxıb ki, Azərbaycan tarixçilərinə də Azərbaycan Xalq Cümhuriyyətinin adının çəkilməsi yasaq edilib. Azərbaycan 1991-ci ildə öz dövlət müstəqilliyini elan etdikdən sonra Azərbaycan Xalq Cümhuriyyəti ilə bağlı bütün qadağalara son qoyuldu. Azərbaycan Xalq Cümhuriyyəti dövrünün dövlət rəmzləri və himni bərpa olundu.

Cümhuriyyətin adının özünə qaytarılması Ümummilli Liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Müstəqillik dövründə Azərbaycan Xalq Cümhuriyyəti ilə bağlı arxiv materialları açıldı, elmi işlər reallaşdı, həqiqətlər ortaya çıxdı. Ulu Öndərimiz dəfələrlə bildirmişdi ki, biz bu gün demokratik Azərbaycan dövlətini qururuqsa, ayağa qaldırırıqsa, Xalq Cümhuriyyətinə borcluyuq.

Ulu Öndərin bu siyasətini hazırda Prezident İlham Əliyev davam etdirir. Dövlətimizin başçısının Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında Sərəncam imzalaması, 2018-ci ili ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan etməsi onun milli dövlətçilik tariximizə diqqət və qayğısının göstəricisidir. Azərbaycan dövlətinin başçısının tarixi keçmişimizə, varisi olduğumuz Xalq Cümhuriyyətinə bu qədər önəm verməsi xalqımız tərəfindən böyük rəğbətlə qarşılanır.

Müstəqillik Günü 1991-ci ildən 2021-ci ilədək Respublika Günü adlandırılıb. Azərbaycan Respublikası Milli Məclisinin 15 oktyabr 2021-ci il tarixli plenar iclasında "Müstəqillik Günü haqqında" yeni qanun qəbul edilib. Elə həmin gün də dövlət başçısı İlham Əliyev tərəfindən "Müstəqillik Günü haqqında" qanun təsdiqlənib.

Qanunun təsdiqlənməsi ilə 28 May - Respublika Gününün adı dəyişdirilərək Müstəqillik Günü elan edilib. Beləliklə, həmin qanun təsdiq ediləndən sonra ilk dəfədir Azərbaycan Müstəqillik Gününü qeyd edir.

**Mətbuat xidməti**

# "TEXNOFEST AZƏRBAYCAN" FESTİVALININ KEÇİRİLMƏSİ ZAMANI İCTİMAİ TƏHLÜKƏSİZLİK YÜKSƏK SƏVİYYƏDƏ TƏMİN OLUNUB

İstər idmanın müxtəlif növləri üzrə dünya və qitəmiqyaslı çempionatların, istərsə də beynəlxalq turnirlərin və festivalların məhz paytaxt Bakı şəhərində keçirilməsi xüsusilə qürurvericidir. Artıq neçə ildir ki, ölkəmizin evsahibliyi etdiyi mötəbər yarışmalar zamanı xarici ölkələrdən gələn vətəndaşların xalqımızın mədəniyyəti, incəsənəti ilə yaxından tanışlığı dünya çapında əhəmiyyətli dövlətlərdən biri kimi tarixə düşməyimizə zəmin yaradır.






Bu il "Texnofest Azərbaycan" Aerokosmik və Texnologiya Festivalının 26-29 may tarixlərində "Bakı Kristal Zalı" və Dənizkənarı bulvar ərazisində keçirilməsi heç də təsadüfi deyil. Qeyd edək ki, "Texnofest" Türkiyənin ən böyük aviasiya, kosmos və texnologiya festivalıdır. Tədbir "Türkiyə Texnologiya Komandası" – T3 Fondu və Türkiyə Respublikasının Sənaye və Texnologiya Nazirliyi tərəfindən 2018-ci ildən etibarən hər il təşkil olunur. Azərbaycan ilk dəfə 2021-ci ildə "Texnofest" Aviasiya, Kosmos və Texnologiya Festivalında iştirak edib. "Texnofest" Aviasiya, Kosmos və Texnologiya Festivalının Türkiyədən kənarda ilk dəfə Azərbaycanda keçirilməsi iki ölkə arasındakı dostluq, qardaşlıq və strateji müttəfiqlik əlaqələrinin növbəti təzahürüdür.





Festivalın keçirilməsi zamanı ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi, ərazinin mühafizəsi və nəzarət-buraxılış tədbirlərinə polis əməkdaşları ilə birlikdə cəlb olunan Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının şəxsi heyəti qarşıya qoyulmuş tapşırıqların icrasına tam məsuliyyətlə yanaşmaqla öhdəsindən gəlib.

Tədbirin təşkil olunacağı ərazi və obyektlərə baxış keçirilərək xidmətin təşkili baxımından təhlil olunub, aidiyyəti üzrə komandir heyəti xidmətaparma yerləri ilə əyani tanış edilib. Xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsinə cəlb olunacaq şəxsi heyətə tədbirin əhəmiyyəti, qanunçuluğun qorunması prinsipləri izah edilərək, vəzifə borclarının icrasına məsuliyyətlə yanaşılması tələb olunub. Festival zamanı tapşırıqların icrasına cəlb ediləcək hərbi qulluqçuların lazımi sayda radiostansiya, əl metal detektorları və digər vasitələrlə təchiz edilməsi, onların sazlığının yoxlanılması müəyyən olunub. "Bakı Kristal Zalı"nda perimetr üzrə xidmətə cəlb ediləcək bölmənin müəyyən edilməsi, döyüş hesabatının dəqiqləşdirilməsi, orada fəaliyyət göstərəcək nəqliyyat-yoxlanış sahələrinə yerləşdiriləcək şəxsi heyətin seçilməsi, xidmətaparma yerləri üzrə bölüşdürülməsi təmin olunub.

"Bakı Kristal Zalı"nın ərazisində müayinə tədbirlərinin keçirilməsi tapşırılacaq istehkamçı qrupun şəxsi heyətinin təyin olunması da nəzərdən qaçmayan məsələlərdən olub.

Festival keçirilən müddətdə xidmətin təşkili üçün bütün tədbirlər görülüb, şəxsi heyətin daşınması, onların qidalanması, hərbi qulluqçulara tibbi xidmətin göstərilməsi, asudə vaxtın səmərəli təşkili xüsusi diqqət mərkəzində saxlanılıb.

Göründüyü kimi, mötəbər tədbir zamanı ictimai təhlükəsizliyin təmin olunmasında kifayət qədər təcrübəyə malik olan Daxili Qoşunların şəxsi heyəti bu dəfə də qarşıya qoyulmuş bütün tapşırıqları müvəffəqiyyətlə yerinə yetirib.

**baş leytenant Nigar Ağayeva**

# "VAŞAQ" XÜSUSİ TƏYİNATLI DƏSTƏSİ HƏRBİ HİSSƏNİN ÖNCÜLLƏRİ SIRASINDADIR

Xüsusi təyinatlı dəstənin əsas vəzifələri istər silahlı cinayətkarların axtarılması, tutulması və zərərsizləşdirilməsi, istərsə də ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin olunması zamanı qarşıya qoyulan tapşırıqların müvəffəqiyyətlə yerinə yetirilməsinə daim hazır olmaqdır. Bu isə hər bir xüsusi təyinatlıdan, ilk növbədə, yüksək döyüş hazırlığı, möhkəm hərbi intizam və "dəmir iradə" tələb edir. Bu mənada 16077 saylı hərbi hissənin "Vaşaq" şərti adı verilmiş xüsusi təyinatlı dəstəsinin hərbi qulluqçuları xidmətdə sayıqlıq və əzmkarlıq nümayiş etdirirlər.





İlin istənilən fəslində, müxtəlif relyefə məxsus ərazilərdə adına uyğun çevik fəaliyyət göstərmək qabiliyyətinə malik olan dəstənin təlim proqramları hissənin digər bölmələrinin müvafiq tədris proqramlarından fərqlənir. Hərbi qulluqçudan kifayət qədər fiziki güc və möhkəm iradəyə malik olmağı tələb edən bu təlim proqramlarında nəzərdə tutulmuş məşğələlərə maraqla yanaşan xüsusi təyinatlılar praktiki fəaliyyət zamanı yüksək peşəkarlıq göstərərək, qarşıya qoyulan tapşırıqların öhdəsindən layiqincə gəlirlər. Qeyd edim ki, dəstə cari ilin aprel ayı ərzində qoşun xidmətinin vəziyyətinə görə hərbi hissənin bölmələri arasında birinci yerə layiq görülüb.





Dəstə komandiri kapitan Elnur Qasımov bildirdi ki, şəxsi heyətin döyüş təlimi Daxili işlər nazirinin müavini-daxili qoşunların komandanının müvafiq direktivinin tələblərinə əsasən təşkil edilir. Əsas diqqət atəş və fiziki hazırlıqları ilə yanaşı, xüsusi-taktiki hazırlıq, hərbi topoqrafiya, həmlə-desant hazırlığı, tək əsgərin döyüş təlimi, hərbi-tibbi hazırlıq, hərbi mühəndis hazırlığı və mütəxəssislərlə ixtisas hazırlığı üzrə məşğələlərə yetirilir. Hərbi qulluqçuların mənəvi-psixoloji hazırlığı da daim diqqətdə saxlanılan əsas məqamlardandır.

Dəstə komandiri xüsusi təyinatlıların hazırlığını yüksək qiymətləndirərək, şəxsi heyətin döyüş tapşırığını yerinə yetirməyə hər zaman hazır olduğunu bildirdi.

Kapitan E.Qasımov, həmçinin, vurğuladı ki, şəxsi heyətin təhkim olunmuş silaha mükəmməl yiyələnməsi, döyüş və digər texnikanın bacarıqla tətbiq edilməsi, əlbəyaxa döyüş fəndlərinin öyrənilməsi, ekstremal şəraitlərdə dayanıqlığın, fəal və qətiyyətli fəaliyyətin nümayiş etdirilməsi, eləcə də yüksək nizam-intizamın saxlanılması və sayıqlığın aşılanması, fiziki və psixoloji gərginliyə müvəffəqiyyətlə tab gətirilməsi dəstə komandirinin müavini-qərargah rəisi kapitan Samir Omarovun xüsusilə diqqət mərkəzindədir.

"Yaradılmış bütün bu şəraitdən düzgün və səmərəli istifadə edərək keçirilən məşğələ və təlimlərin keyfiyyətinin artırılması məhz döyüş hazırlığının yüksəldilməsinə xidmət edir. Yüksək döyüş hazırlığına, eləcə də xidmətin nümunəvi təşkil olunub aparılmasına nail olmanın əsasında isə şəxsi heyətin nizam-intizamı və düzgün istiqamətə köklənmiş mənəvi-psixoloji durumu dayanır" – deyə, fikirlərini bildirən dəstə komandirinin tərbiyə işləri üzrə müavini mayor Elgün Mirzəliyev bu baxımdan bəzi məqamlara aydınlıq gətirdi: "Ümumilikdə götürdükdə, dəstə kiçik bir hərbi kollektivdir. Dəstənin qarşısına qoyulmuş tapşırıqların müvəffəqiyyətlə yerinə yetirilməsi isə hərbi qulluqçuların birgə fəaliyyətindən asılıdır. Şəxsi heyətin hərbi intizamının möhkəmləndirilməsi, hərbi kollektivdə dostluq və yoldaşlıq məfhumunun aşılanması, eləcə də mənəvi-psixoloji durumun düzgün məcraya yönləndirilməsi ümumi məqsədə çatmanın əsas meyarı olmaqla yanaşı, tərbiyə işinin vacib vəzifələrindəndir".

Kapitan E.Qasımov şəxsi heyət arasında yüksək döyüş hazırlığı və intizam nümayiş etdirən qrup komandirlərindən kapitanlar Taleh Rüstəmli, Ramin Rəhimov, digər hərbi qulluqçulardan baş çavuşlar Rizvan Məhərov, Hüseyn Həsənov, Kərim Kərimov və Anar Əliyevin adlarını çəkdi.

**baş leytenant Nigar Ağayeva**

3_Layout 1 30.05.2022 12:25 Page 1



*Şəhidlərimiz*

# MUROVDAĞ DÖYÜŞLƏRİNDƏ ŞƏHADƏTƏ UCALAN İGİD SNAYPER

44 günlük Vətən müharibəsində böyük qəhrəmanlıq və şücaət göstərərək torpaqlarımızı erməni işğalından azad edən igid oğullarımızın şərəfli döyüş yolunu öyrənmək və cəmiyyətdə geniş təbliğ etmək hər birimizin vətənpərvərlik borcudur.

Vətən uğrunda qəhrəmancasına vuruşaraq şəhidlik zirvəsinə yüksəlmiş cəsur xüsusi təyinatlılarımızdan biri də çavuş Cəbrayıllı İbrahim Raqub oğludur.

Çavuş İbrahim Cəbrayıllı 1999-cu il fevralın 3-də Zərdab rayonunun Məlikumudlu kəndində anadan olub. Raqub Cəbrayılovun və Mahiyyə Həsənovanın böyüdüb tərbiyə etdiyi üç övladından (İbrahim, Gülnar və Süreyya) biri, həmçinin, ailənin ilk nübarı və iki bacının tək qardaşı idi.

İbrahim orta təhsilini Məhəmməd Füzuli adına Məlikumudlu kənd tam orta məktəbində alıb. Hələ uşaq yaşlarından idmana, xüsusilə də futbola böyük maraq göstərib. Bununla yanaşı, təsərrüfat işlərində valideynlərinə hər zaman dəstək olan İbrahim həm də böyüyüb boya-başa çatdığı kəndin sakinləri arasında olduqca zirək, tərbiyəli, yalanı qətiyyən sevməyən, böyük-kiçiyin yerini bilən və hər kəsə hörmətlə yanaşan gənc kimi tanınıb.

Ümumiyyətlə, respublikamızın qədim yaşayış məntəqələrindən biri olan Məlikumudlunun zəhmətkeş sakinləri hər zaman Vətənə və torpağa bağlılıqları ilə sayılıb-seçilən olublar. Kəndin respublikamızın suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olmuş 4 nəfər sakinindən 3 nəfəri Birinci Qarabağ müharibəsi zamanı əbədiyyətə qovuşub. İbrahim isə kəndin 44 günlük Vətən müharibəsində şəhidlik zirvəsinə ucalmış yeganə sakinidir. Həmçinin, onu da qeyd edək ki, cəsur silahdaşımızın atası Raqub və əmisi Məcid Cəbrayılov Birinci Qarabağ müharibəsi zamanı könüllü olaraq Füzuli rayonunun müdafiəsi uğrunda gedən döyüşlərdə iştirak ediblər.

İbrahim müddətli həqiqi hərbi xidmətini 2017-ci ilin iyul ayından 2019-cu ilin yanvar ayınadək Daxili Qoşunların 25031 və 25033 saylı hərbi hissələrində keçib. Bu dövrdə qoşunların 12318 saylı hərbi hissəsində kiçik komandirlər kursunu bitirərək, "çavuş" hərbi rütbəsinədək yüksəlib. Müddətli həqiqi hərbi xidmətini başa vurduqdan sonra qoşunların 17072 saylı hərbi hissəsinin xüsusi vasitələrin tətbiqi dəstəsində müddətdən artıq həqiqi hərbi xidmətə keçirilərək, baş atıcı vəzifəsində Vətənə olan şərəfli borcunu yerinə yetirməyə davam edib. 2019-cu ilin oktyabr ayından etibarən isə hərbi hissənin "Pələng" şərti adını daşıyan xüsusi təyinatlı dəstəsinin xüsusi həmlə qrupunda snayper kimi vəzifə borcunu ləyaqətlə yerinə yetirib. Xidmət etdiyi dövrdə yüksək döyüş hazırlığı və hərbi intizamı ilə böyük rəislərin etimadını doğruldub, hərbi hissə komandanlığı tərəfindən



dəfələrlə mükafatlandırılıb.

17072 saylı hərbi hissədə xüsusi təyinatlı dəstənin komandiri olmuş, Vətən müharibəsi iştirakçısı polkovnik-leytenant Zaur Rəhimov (hazırda 16073 saylı hərbi hissədə xüsusi təyinatlı dəstənin komandiri) vaxtilə tabeliyində xidmət etmiş İbrahimin cəsurluğundan qürur hissi ilə danışdı: "Çavuş İbrahim Cəbrayıllı əsl vətənpərvər, cəsur döyüşçü idi. Bütün müsbət insani keyfiyyətlər sanki onda cəmləşmişdi. Xüsusi təyinatlıya xas olan mərdlik, qorxmazlıq, cəsarətlilik və digər amillər elə məhz onun əsas xarakterik xüsusiyyətləri idi. Dəstəmizdə yaşda hər kəsdən kiçik olsa da, nizam-intizamı, təlim-tərbiyəsi, xoş rəftarı ilə kollektiv arasında böyük hörmət və nüfuz qazanmışdı. Xidmətdə bircə dəfə də olsun məzəmmət edilməmişdi. Ona təhkim olunmuş silahın bütün taktiki-texniki xüsusiyyətlərini mükəmməl mənimsəmişdi. Sərrast atıcı, əsl snayper idi. İbrahim mənim, eləcə də onu tanıyan bütün silahdaşlarının xatirələrində məhz bu cür qalıb. Döyüş meydanında cəsur snayper kimi düşmənə gözdağı verməklə, hərbi andına sadiq əsl vətənpərvər xüsusi təyinatlı olduğunu bir daha təsdiq etdi".

Bəli, Vətən müharibəsinin ilk günündən hərbi əməliyyatlarda fəal iştirak edən çavuş İ.Cəbrayıllının döyüş yolu qısa olsa da, Murovdağ silsiləsinin Kəlbəcər istiqamətində bir sıra strateji əhəmiyyətli yüksəkliklərin azad olunmasında və düşmənin xeyli sayda canlı qüvvəsinin məhv edilməsində böyük şücaət göstərib. Lakin döyüşçü yoldaşlarının da qeyd etdikləri kimi, 2020-ci il sentyabrın 29-da cəbhənin bu istiqamətində düşmənin atdığı minaatan mərmisinin yaxınlığında partlaması nəticəsində sol qolundan və hər iki ayağından ağır yaralanaraq gözlərini əbədi yumub, şəhidlik zirvəsinə yüksəlib.

17072 saylı hərbi hissədə xüsusi təyinatlı dəstənin xüsusi həmlə qrupunda yarımqrup komandiri, Vətən müharibəsi iştirakçısı baş çavuş Yasin Qasımov məlumat verdi ki, müharibənin ilk günündən İbrahimlə birgə döyüş əməliyyatlarında iştirak edib. Onların qrupu Müdafiə Nazirliyinin xüsusi təyinatlı bölmələri ilə birgə Murovdağ silsiləsi istiqamətindən Kəlbəcər rayonunun Susuzluq kəndi ətrafında bir sıra döyüş tapşırıqlarını yerinə yetirib. Bildirdiyinə görə, dəstənin digər qrupları Murovdağ silsiləsində yerləşən və düşmənin nəzarətində olan "Sağ Canavar" və "Sol Canavar" adlanan iki strateji postu, eləcə də digər hakim yüksəklikləri azad ediblər. Bundan sonra onların qrupu Ömər yüksəkliyinin üzərindən əvvəlcədən asılmış kanatlar vasitəsilə dırmaşaraq, Susuzluq kəndinə doğru hərəkət edib. Qarşıya qoyulan tapşırıqları uğurla yerinə yetirən qrupun şəxsi heyətinə sentyabrın 28-i axşam saatlarında geri çəkilmək əmri verilib: "Biz müdafiə olunaraq geri çəkilirdik. Səhəri günü Ömər yüksəkliyinin yaxınlığında düşmən bizi aşkar edərək, şiddətli artilleriya atəşinə tutdu. Bu zaman dəstəmizin cəsur döyüşçülərindən baş çavuş Ruslan Qurbanov və əsgər Elnur Bağırov şəhid oldular, çavuş İ.Cəbrayıllı isə ağır yaralandı. İbrahimin yaralandığı yer tam açıq ərazi olduğu üçün yardım göstərməyə gedən yoldaşlar da atəşə məruz qalırdılar. Lakin buna baxmayaraq, İbrahimi oradan çıxararaq, ona ilk tibbi yardım göstərilsə də, aldığı yaralar çox ağır olduğundan, sentyabrın 29-u günortadan sonra cəsur silahdaşımız şəhadətə yüksəldi".

17072 saylı hərbi hissədə xüsusi təyinatlı dəstənin xüsusi həmlə qrupunda atıcı, Vətən müharibəsi iştirakçısı çavuş Samir Qarayev qeyd etdi ki, ayrı-ayrı qrupların tərkibində olsalar da, müharibənin ilk günündən İbrahimlə birgə şəhid olana kimi bir yerdə olublar: "İbrahim çox yaxşı snayper idi, elə öz silahı ilə döyüşə qatılmışdı. Onunla birgə iştirak etdiyim ilk və son döyüş tapşırığımız Murovdağ silsiləsinin Kəlbəcər istiqamətindəki hərbi əməliyyatlar oldu.

Yaxşı yadımdadır, qrupumuz Susuzluq kəndi ətrafındakı mövqelərdə olarkən, Füzuli istiqamətində döyüşlərə qatılacağımızla bağlı yeni tapşırıq aldıq. Biz mövqelərdəki yerlərdən dərhal qalxaraq, Ömər yüksəkliyinə tərəf irəlilədik. Yükün ağır olduğundan, yorğunluğumu almaq üçün bir anlıq qaya parçası üzərində əyləşmiş oldum. Bu vaxt çavuş İ.Cəbrayıllı yanımda əyləşib: "Qardaşım, çox yoruldu. Amma az qalıb. Bir azdan çatarıq yeqin ki..." - dedi. Bir qədər sonra əlini çiynimə qoyub: "Qalx, qardaşım" – deyərək, yerindən sıçrayıb ayaq üstdə qarşımda dayanaraq əlini uzatdı ki, mən də qalxım və birlikdə gedək. Mən də onun əlindən tutub qalxdım və yol boyu sa-



kit səslə söhbət edərək irəliləməyə başladıq. Gəlib ortasından çay axan böyük bir yarğanın arasından keçməli olduq. Bərk susadığımızdan, qrup şəklində burada biriki dəqiqə dincəlməli olduq. Su qablarımızı doldurduğumuz zaman İbrahim üzünü mənə tutub: "Qardaş, su içək, enerji yığaq, bu snayper ilə gör neçə erməni məhv edəcəm" - dedi və biz qalxıb yenidən yolumuza davam etdik.

Artıq hava aydınlaşırdı. Səhər sübh çağı idi, biz yorğun olsaq da dayanmırdıq, yolumuza davam edirdik. İbrahimin yanımda deyil, sağ tərəfdə irəlilədiyini gördüm və yanıma çağırdım. İbrahimdən başqa bir neçə döyüşçü də o istiqamətdə irəliləyirdi. Birdən ani anda dumanın çəkilməsi ilə düşmən bizi gördü və artilleriya atəşinə tutdu. İlk atışı aldadıcı edən mənfur düşmənin sonrakı atışları döyüşçülərimizin üzərinə oldu və bir neçə silahdaşımız yaralandı. Deməli olar ki, hər birimiz üzərimizə bərkitdiyimiz silahı və digər əmlakları yerə qoyaraq yaralılara köməyə qaçdıq.

Biz yaralıları düşmənin görə bilməyəcəyi böyük bir qaya parçasının yanına gətirdik və təxliyyə maşınlarına təhvil verdikdən sonra digər yaralı və şəhidlərimizi çıxarmaq üçün geriyə qayıtdıq. Həmin an mən özü yuxarı qalxdığım istiqamətdə döyüşçü yoldaşım çavuş Ümman Baxşəliyev və çavuş Pərvin Şahməmmədovun xərəkdə daşıdıqları yaralıya tərəf getdim. Bu iki yoldaşımdan başqa xüsusi təyinatlı qüvvələrin bir neçə hərbi qulluqçusu da xərəyin sağ və sol tərəfindən tutmuşdu. Xərəyin yanına getmişdim ki, gözlərimə inana bilmədim. Xərəkdəki İbrahim idi. O vaxta kimi onun yaralanmasından belə xəbərim yox idi. İbrahimin yaraları çox ağır idi. İlk tibbi yardım göstərilsə də, bilək və ayaq nahiyələrindən ağır yaralandığına görə çoxlu qan itirməsi onu tamam halsız etmişdi. Mən onlara çatanda xərəyi yavaş-yavaş yerə qoydular. İbrahim asta səslə iki dəfə su istədi. Biz onu elə görməyə alışmamışdıq deyə ağlayırdıq. O zaman İbrahim "ağlamayın, yaxşı olacaq" - deyərək, bir də su istədi. Mən ona dodaqlarını islatsın deyə azacıq su verdim. Sonra İbrahim siqaret istədi. Düzdür, o, siqaret çəkən deyildi. Onu heç zaman siqaret çəkən görməmişdim. Bu zaman xərəyin yanında olan döyüşçülərdən biri siqaret yandıraraq ona verdi. İbrahim dərindən bir tüstü alıb, buraxdı havaya. Sonra dərindən nəfəs aldı və "gedirəm" dedi. İlk olaraq anlamadıq. Bu zaman çavuş Cavad İbadov da bizə çatdı. "Qardaşım, səbirli ol, çıxarırıq səni" – deyə bildirdi. O isə: "Yox, mən gedirəm, mən gördüyümü siz görmürsünüz" – söylədi. Dərindən nəfəs aldı. Başı tərəfdə diz üstə çöküb, əlimi saçlarına toxundurub: "Qardaşım, bir az döz, gedirik" - dedim. İbrahim qısa gülərək "səninlə zarafat etmək çox gözəl idi, qaqa, amma belə olmalı deyildi" - dedi. Gözləri yaşardı və "bacılarım..." - deyərək gözlərini əbədiyyətə yumdu...".

Çavuş İ.Cəbrayıllı 2020-ci il oktyabrın 1-də Zərdab rayonunun Məlikumudlu kənd qəbiristanlığında dəfn olunub. Subay idi.

Göygöl Rayon Qeydiyyat Şöbəsi tərəfindən verilmiş 1 oktyabr 2020-ci il tarixli ölüm haqqında şəhadətnamədə hərbi qulluqçumuzun 2020-ci il sentyabrın 30-da hərbi əməliyyatlar nəticəsində budun açıq yarasından həlak olduğu yazılıb.

Azərbaycan Respublikası Prezidentinin imzaladığı 15 dekabr 2020-ci il tarixli və 29 dekabr 2020-ci il tarixli müvafiq sərəncamlarla çavuş Cəbrayıllı İbrahim Raqub oğlu (ölümündən sonra) "Vətən uğrunda" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilib.

Məlikumudlu kənd sakini, Vətən müharibəsi iştirakçısı Səxavət Məmmədli tərəfindən şəhidimizin xatirəsinə kənddə abidəbulaq inşa olunub. Ailə üzvlərinin yaşadığı evdə isə xatirə guşəsi düzəldilib.

Məzunu olduğu orta məktəbin 11-ci sinfinə şəhid döyüşçünün adı verilib. Məktəbdə şəhidin xatirəsinə fotostend və guşə hazırlanıb.

Sonda onu qeyd edək ki, Vətən uğrunda şəhidlik zirvəsinə ucalan İbrahim kimi igid oğullarımızın əziz xatirəsi hər birimizin qəlbində əbədi yaşayacaqdır.

**Allah rəhmət eləsin!**

**mayor Anar Əhmədov**

*Qazilərimiz*

# BƏDƏNİNDƏ ÇOXSAYLI QƏLPƏ İLƏ YAŞAYAN CƏSUR DÖYÜŞÇÜ

Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçuları Vətən müharibəsində qarşıya qoyulan döyüş tapşırıqlarını ləyaqətlə və peşəkarlıqla yerinə yetiriblər. Onlardan biri – istefada olan baş çavuş Quliyev Elxan Elman oğlu Vətən müharibəsi qazisidir. Elxanın öz ailəsi ilə yaşadığı Binəqədi rayonunun Xocəsən qəsəbəsindəki mənzilinə baş çəkdim. Dövlətimizin qayğısı olaraq qaziyə verilmiş mənzildə onun həyat yolu barədə ətraflı söhbət etdik.

O, 1990-cı il fevralın 4-də Bərdə rayonunun Yeni Əyricə kəndində doğulub. Elman Quliyev və Sona Quliyevanın iki oğul övladından böyüyüdür. Qardaşı Elməddin 1995-ci il təvəllüdlüdür.

Quliyevlər ailəsi rayonun Yeni Əyricə kəndindən köçərək Mustafaağalı kəndində məskunlaşıb. Bu kəndin sakinlərindən Birinci Qarabağ müharibəsi, Aprel döyüşləri və Vətən müharibəsində şəhidlik zirvəsinə ucalanlar, habelə qazi olanlar var.

Mustafaağalı kəndindəki şəhid Göyüş Qarayev adına tam orta məktəbin məzunu olan Elxan həm ailədə, həm də müəllimləri tərəfindən vətənpərvər ruhda tərbiyə olunub. Orta məktəbdə oxuduğu illərdə hərbçi peşəsinə onda maraq yaranıb, hərbi qulluqçu olmağı arzulayıb.

2008-ci ilin aprel ayında Elxan müddətli həqiqi hərbi xidmətə çağırılıb. 2009-cu ilin oktyabr ayınadək Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində hərbi xidmət keçib. Müddətli həqiqi hərbi xidmət dövründə sanitar-təlimatçı kursunu bitirib. Tank əleyhinə batareyada xidmət edərək "kiçik çavuş" hərbi rütbəsinədək yüksəlib.

Hərbçi peşəsinə rəğbəti Elxanı hərbi xidmətə qayıtmağa həvəsləndirib. Doğma rayonunda Daxili Qoşunların hərbi qulluqçularının xidmət keçməkləri onun diqqətini cəlb edib. Daxili Qoşunların fəaliyyəti haqqında televiziya proqramlarını, sosial şəbəkələrdə videoçarxları maraqla izləyib. Həmyerlilərindən qoşunlarda xidmət edən şəxslərin məsləhətlərinə də laqeyd qalmayıb. Beləliklə, müddətdən artıq həqiqi hərbi xidmət keçmək üçün Daxili Qoşunların komandanlığına müraciəti müsbət cavablandırılıb.

2013-cü ilin mart ayının 29-da 12318 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsində xüsusi vasitələrin tətbiqi bölməsinin xüsusi vasitələrin tətbiqi qrupunda baş atıcı vəzifəsinə təyin olunub. Həmin dəstənin xüsusi vasitələrin tətbiqi qrupunda yarımqrup komandiri vəzifəsinə irəli çəkilib. 2018-ci ilin may ayında bu hərbi hissənin xüsusi təyinatlı dəstəsinə keçirilərək xüsusi həmlə qrupunda atıcı-snayper vəzifəsinin öhdəsindən bacarıqla gəlib. 2019-cu ilin avqust ayından isə hərbi xidmətini 99713 saylı hərbi hissədə davam etdirərək xüsusi təyinatlı dəstənin xüsusi əməliyyat qrupunda atıcı vəzifəsi ona həvalə olunub. Təyin olunduğu vəzifələrdə qarşıya qoyulan tapşırıqları məsuliyyətlə yerinə yetirib, komandanlığın etimadını layiqli xidməti ilə doğruldub. Təlimlərdə və məşğələlərdə fəal olub, peşə hazırlığının artırılması yönündə vicdanla çalışıb. Nümunəvi xidməti nəzərə alınaraq dəfələrlə mükafatlandırılıb. Müsbət fərdi keyfiyyətlərinə görə hərbi qulluqçular arasında hörmət qazanıb.

2020-ci ilin fevral-sentyabr aylarında qardaş Türkiyə Respublikasında Jandarm Baş Komandanlığının Foçada yerləşən təlim mərkəzində komando kursunu keçib, eləcə də ayrıca olaraq yaşayış məntəqələrində terrorla mübarizə fəaliyyəti təlimlərinə cəlb edilib. Komando kursu və yaşayış məntəqələrində terrorla mübarizə fəaliyyəti təlimində Elxan öz bacarığı ilə fərqlənib.

Daxili işlər nazirinin müavini - daxili qoşunlar komandanının 18 sentyabr 2020-ci il tarixli müvafiq əmri ilə xüsusi təyinatlıya zoğalı beret daşıma hüququ verilib.

2020-ci ilin sentyabr ayının 27-də er-



məni işğalçılarına qarşı başlayan Vətən müharibəsi digər silahdaşları kimi Elxanın da həyatının ən çətin və şərəfli sınağı oldu. Xidmət etdiyi dəstənin bir qrup şəxsi heyətinin tərkibində müharibənin ilk günündən etibarən öncə 16077 saylı hərbi hissəyə göndərilib. Burada döyüş tapşırıqlarının icrasına hazırlıq görülüb. Oktyabr ayının ortalarında hərbi hissədən ön cəbhəyə gəliblər. Həmin vaxt ayrı-ayrı qoşun növlərinin şəxsi heyətinin iştirakı ilə müxtəlif istiqamətlərdə erməni ordusunun bölmələrinə qarşı döyüşlər səngiməyib. Xüsusi təyinatlı öz silahdaşları ilə birgə Füzuli rayonu ərazisində bir sıra yaşayış məntəqələri və yüksəkliklərin düşməndən təmizlənməsində qəhrəmanlıq göstərib, həmçinin, ön cəbhə qərargahının mühafizəsi, azad olunmuş ərazilərin müdafiəsində dayanıb. Təcavüzkarın diversiya-kəşfiyyat qruplarının nəzarətimizdə olan ərazilərə sızmasının qarşısının alınması, habelə işğalçılardan qalmış silahsursatın aşkarlanması məqsədilə axtarış, mövqelərin möhkəmləndirilməsi tapşırıqlarını yerinə yetirib.

Xocavənd rayonunun Hadrut qəsəbəsində cəmləşdirilən xüsusi təyinatlılardan ibarət qruplar buradan Şuşa istiqamətində hərəkətə başlayıblar. Şuşa şəhərinə doğru Xocavənd və Xocalı rayonlarının mürəkkəb relyefə malik ərazilərindən keçməklə bir neçə gün ərzində irəliləyiblər. Döyüşçülərimiz Şuşaya çatanadək yol boyu təcavüzkarın artilleriya atəşinə məruz qalıblar. Atəşə tutulan hərbi qulluqçularımız arasında şəhid və yaralıların olması Elxanı sarsıtsa da, düşmənə qarşı nifrət və qəzəbini daha da artırıb.

Noyabrın əvvəllərində Şuşa ətrafında həlledici döyüşlərdə Elxan avtomat silahından sərrast atəşlə xeyli sayda erməni hərbçisini məhv edib. Noyabrın 4-dən 5-nə keçən gecə Laçın-Şuşa yolunda pusquya düşüblər, ancaq döyüşçülərimizin peşəkarlığı nəticəsində işğalçıların cinahlardakı postları susdurulub. Xankəndi-Şuşa yolunu da nəzarətə götürməyi bacaran xüsusi təyinatlılar pusqu quraraq ermənilərin müxtəlif hərbi texnikalarını atəşlə sıradan çıxarıblar, eləcə də çoxlu canlı qüvvəsini tələfata uğradıblar. Onlar Şuşanın yaxınlığında – Pənahəli xanın qalası istiqamətində mövqelənibləр.

Noyabrın 7-də Elxan Xankəndi-Şuşa yolunun kənarındakı ərazidə yerləşən postlardan birinə rabitə vasitəsini aparmaq və su qablarını doldurmaq üçün gedib. Döyüşçü yoldaşı Tamerlanla rabitə vasitəsi və su qablarını götürərək geriyə qayıdarkən onların bir neçə metrliyində qəfil olaraq artilleriya mərmisi partlayıb. Partlayış dalğası və çoxsaylı qəlpədən Elxan ağır yaralanıb. Tamerlan və digər döyüşçü Nəcəf onu həmin ərazidən çıxarıblar. Elxana ilk tibbi yardım göstərilib. Noyabrın 8-dən 9-na keçən gecə o, döyüş zonasından təxliyyə olunub.

Hərbi qulluqçumuz ayrı-ayrı xəstəxanalar və Daxili Qoşunların Hərbi Qospitalında müalicə olunub, üzərində cərrahiyyə əməliyyatı aparılıb. Hərbi xidmətə yararsız olduğundan II qrup əlillik dərəcəsi ilə istefaya buraxılıb. Bədənində qalan qəlpələr, xüsusən ürəyin yad cismi onun sağlamlığı üçün ciddi problemdir. Bu problemi aradan qaldırmağı üzərilərinə götürəcək peşəkar həkimlərə ehtiyacı var.

Azərbaycan Respublikası Prezidentinin imzaladığı 25.12.2020-ci il tarixli, 29.12.2020-ci il tarixli müvafiq sərəncamlarla baş çavuş E.Quliyev "Füzulinin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə", bununla yanaşı, Müdafiə nazirinin 28.12.2020-ci il tarixli aidiyyəti əmrinə əsasən, III dərəcəli "Hərbi xidmətdə fərqlənməyə görə" medalları ilə təltif olunub.

Vətən müharibəsi iştirakçıları: 16077 saylı hərbi hissədə ayrı yerləşən xüsusi təyinatlı dəstənin komandiri mayor Nurlan Məmmədov (ön cəbhədə Elxanın komandirlərindən biri olub), 99713 saylı hərbi hissədə xüsusi təyinatlı dəstənin xüsusi əməliyyat qrupunda yarımqrup komandiri baş çavuş Nəcəf Rəsulov və həmin dəstənin xüsusi əməliyyat qrupunda atıcı-snayper çavuş Təravət Məmmədova söhbət zamanı onlar ön cəbhədə Elxanın ruh yüksəkliyi ilə vuruşduğunu, döyüşlərdə xüsusi təyinatlı olaraq dözüm, məharət, sayıqlıq və qorxmazlıq nümayiş etdirdiyini, etibarlı silahdaş kimi mübarizə sınağından alnıaçıq, üzüağ çıxdığını vurğuladılar.

Fədakar qazimiz üç övlad atasıdır, onlar böyüyərək müzəffər xalqın nümayəndələri olmalarından qürur duyacaq, ataları ilə həmişə fəxr edəcəklər.

**Yalçın Abbasov**

4 - 2_Layout 1 30.05.2022 12:24 Page 1



## HƏRBİ HİSSƏLƏRİN MİNAATAN BATAREYALARININ ŞƏXSİ HEYƏTİ İLƏ DÖYÜŞ ATIŞLI TAKTİKİ TƏLİM KEÇİRİLİB

Mayın 10-dan 14-dək Müdafiə Nazirliyinin Goranboy rayonunda yerləşən Təlim mərkəzində 16077, 16073 və 17074 saylı hərbi hissələrin minaatan batareyalarının şəxsi heyəti ilə döyüş atışlı taktiki təlim keçirilib. İlk olaraq, təlimin təşkili və keçirilməsi üçün planlaşdırıcı sənədlər hazırlanıb. Təlimin ilk günündə hərbi qulluqçularla təhlükəsizlik qaydalarına riayət olunması üzrə məşğələ təşkil olunub, şəxsi heyətin hazırlığına, silahlara, döyüş sursatlarına, optik kəşfiyyat cihazlarına, GPS və rabitə vasitələrinə baxış keçirilib.



Daha sonra hərbi hissələrin minaatan batareyalarının hərbi qulluqçuları ilə xüsusi taktiki və ixtisas məşğələləri, atəş mövqeyinin tutulması, tərk edilməsi, atəş açana qədər heyətlərin işi, atışa xidmət tapşırıqlarının icrası, praktiki döyüş atışlarının keçirilməsi qaydaları, həmçinin, komandir heyəti ilə ərazinin vizual kəşfi, qiymətləndirilməsi, döyüş əmrinin hazırlanması, ərazinin xəritəsindən istifadə edərək hədəfləri müəyyən etməklə atışların keçirilməsi, artilleriya atışı və onun idarə olunması üzrə məşğələlər təşkil olunub.



Təlimlərin keçirilməsi zamanı təşkilati məsələlərin həlli, şəxsi heyətin qidalanması, yerləşdirilməsi, daxili xidmətin təşkili, praktiki atışlar zamanı isə atəş sahəsinin mühafizəsi, tibbi təminatı həyata keçirilib. Təlim zamanı təhlükəsizlik qaydalarına ciddi əməl olunub və xəsarətalma hallarına yol verilməyib.

Sonda minaatan bölmələrin hazırlığının yoxlanılmasının və keçirilən döyüş atışlı taktiki təlimin nəticələri ilə əlaqədar aidiyyəti şəxslərlə yekun keçirilib, aşkar olunmuş nöqsanlar üzrə müvafiq tapşırıq və tövsiyələr verilib.

**baş leytenant Nigar Ağayeva**

## ŞƏXSİ HEYƏTİN NORMAYA UYĞUN KEYFİYYƏTLİ QİDALANMASI DİQQƏT MƏRKƏZİNDƏDİR




Daxili Qoşunlar komandanlığının əsas diqqət yetirdiyi sahələrdən biri də şəxsi heyətin keyfiyyətli, kalorili yeməklərlə qidalanmasıdır. Çünki hərbi qulluqçuların sağlamlığının qorunması və səhhətinin möhkəmləndirilməsi digər amillərlə yanaşı, sağlam və keyfiyyətli qidalanmadan da asılıdır.

16077 saylı hərbi hissədə ərzaq xidmətinin rəisi mayor Ceyhun Xəlilov şəxsi heyətin qidalanmasının Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Silahlı Qüvvələrdə ərzaq normalarının bölünməsi Qaydaları"na, Daxili işlər nazirinin müvafiq əmri ilə təsdiq edilmiş "Daxili Qoşunlarda ərzaq xidmətinin təşkili haqqında Əsasnamə"yə və digər rəhbəredici sənədlərin tələblərinə əsasən təşkil edildiyini söylədi. Onun sözlərinə görə, xörəklərin keyfiyyətli hazırlanması Daxili Qoşunların və hərbi hissə komandanlığının qarşıya qoyduğu ən vacib tələblərdəndir. Bu baxımdan hazırlanan xörəklərin keyfiyyətinin yüksək olması, sanitar-gigiyenik qaydalara ciddi riayət edilməsi üçün bütün tədbirlər görülür.

Daxili Qoşunlarda uzun müddət müxtəlif hərbi hissələrdə xidmət edən mayor C.Xəlilov şəxsi heyətin qidalanması və gündəlik qida rasionu barədə də məlumat verdi. Bildirdi ki, hərbi qulluqçuların qidalanmasında əsasən milli təamlara üstünlük verilir. Gündəlik olaraq mövsümi salatlar və meyvə şirələri də qida rasionuna daxildir. Xüsusilə qış mövsümündə kəskin respirator xəstəliklərin yayılmasının qarşısını almaq məqsədilə şəxsi heyətin qida rasionuna soğan, sarımsaq kimi faydalı tərəvəzlər əlavə olunur. O, şəxsi heyətin qidalanmasının həftəlik bölgü cədvəlinə əsasən təşkilini də bildirdi. Bunun üçün yeməkxanada məsul vəzifəli şəxslər tərəfindən qidalanma rejimi və ərzağın bölüşdürülməsi tərtibatı işlənib hazırlanır.

Mayor C.Xəlilov görülən işlərdə yeməkxana rəisinin vəzifələrini müvəqqəti icra edən gizir Elvin Sadıqovun əməyini xüsusilə vurğuladı. Onun qarşıya qoyulan vəzifələrin öhdəsindən layiqincə gəldiyini, qidaların tələb olunan keyfiyyətdə hazırlanması, gigiyena qaydalarına ciddi əməl olunması üçün öz əməyini əsirgəmədiyini diqqətə çatdırdı.

Əlavə olaraq, qidaların tələb olunan səviyyədə keyfiyyətlə hazırlanmasında kurs keçmiş ixtisaslı əsgər aşpazlarla yanaşı mülki işçi - aşpazlardan Nazim Dadaşov, Qənirə Dadaşova və Leyla Haqverdiyevanın fəaliyyətini də müsbət xarakterizə etdi.

**baş leytenant Nigar Ağayeva**

## HƏKİM MƏSLƏHƏTİ

### Sağlam qida qaraciyərin fəaliyyətinə kömək edir

İnsan bədənində ən vacib orqanlardan biri olan qaraciyərin təmizlənməsi və yenilənməsində sağlam qidalanma böyük rol oynayır. Bəzi qidalar qaraciyərdəki toksinləri xaric edərək, onun sağlamlığını qoruyur.



Antioksidant tərkibli olan sarımsaq qaraciyərin təmizlənməsi üçün vacib bir qidadır. Vitaminlərlə zəngin olan sarımsaq qaraciyər fermentlərini aktivləşdirir, toksinlərin bədəndən çıxarılmasına imkan yaradır.

Sarımsağın tərkibindəki kükürd birləşmələri orqanizmdəki fermentlərin istehsalına kömək edir. Təbii antibiotik hesab edilən sarımsağın çiy yeyilməsi daha məqsədəuyğundur.

Bədənin sağlam yağ qəbul etməsi üçün ən faydalı meyvə olaraq bilinən avokado qaraciyərin bərpasını təmin edir və tərkibindəki omega-6 yağı ilə hüceyrələri yeniləyir. Eyni zamanda, avokado bədəndəki zərərli yağ turşularını məhv edir.

Sağlam qaraciyər üçün vacib qidalardan biri də üzümdür. Aparılan tədqiqatlarda üzüm tumunun qaraciyər zədələnməsi probleminə müsbət təsir etdiyi müşahidə edilib.

Bədəni zərərli toksinlərdən təmizləmək kimi vacib bir vəzifəsi olan qaraciyərin öz-özünü yeniləməsi üçün gün ərzində 2-3 litr su içmək tövsiyə olunur.

Spirtli içkilər, qızartma qidalar və yağlı souslar qaraciyərin sağlamlığı üçün ziyandır.

### Alma sirkəsinin insan orqanizmi üçün faydaları



Alma sirkəsi sağlamlıq üçün olduqca faydalıdır. Tərkibindəki maqnezium, kalium və vitaminlər səbəbindən immuniteti gücləndirir və bədənin turşu balansını tənzimləyir. Şəkər xəstəliyindən əziyyət çəkənlərin qan şəkərini stabilləşdirir.

Alma sirkəsinin həm saç, həm də dəri üçün faydaları saysız-hesabsızdır. Saçları parlaqlaşdırır, baş dərisindəki məsamələri açır, saçın nəfəs almasını və sağlam qidalanmasını təmin edir. Eyni zamanda, alma sirkəsi dəri üçün də faydalıdır. Dəridəki ölü hüceyrələri təmizləyir. Mütəmadi olaraq alma sirkəsindən istifadə etmək dərini parlaq və hamar edir. Quru dərilər üçün nəmləndirici rolu oynayır və quru dəri problemini aradan qaldırır. Zəngin mineral tərkibi səbəbindən orqanizmdə itirilmiş mineralları bərpa edə bilir.

**AZƏRTAC**

*NÜMUNƏVİ XİDMƏT*

## XİDMƏTDƏ VƏTƏNPƏRVƏRLİK VƏ ƏZMKARLIĞIN VƏHDƏTİ



Artıq 20 ildir ki, Daxili Qoşunların sıralarında xidmət edən mayor Rakif Ramazanov 16077 saylı hərbi hissənin şəxsi heyəti arasında nüfuzu olan zabitlərdəndir. O, 1983-cü il aprelin 5-də Lerik rayonunda anadan olub. Orta təhsilini 1989-2000-ci illərdə Lerik rayonunda yerləşən şəhid Arif Heydərov adına tam orta məktəbdə alıb. Təhsilini başa vurduqdan sonra 2001-2002-ci illərdə Daxili Qoşunların 67987 saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçib. Hərbçi peşəsinə maraq göstərdiyindən müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi fəaliyyətə başlayıb. 2008-2010-cu illərdə Daxili Qoşunların Orta İxtisas Hərbi Məktəbində (hazırda Ali Hərbi Məktəb) təhsil alıb, ona "leytenant" hərbi rütbəsi verilib. Sonra 67987 saylı hərbi hissənin komendant bölüyündə taqım komandiri vəzifəsinə təyin olunub.

Zabit kimi peşə hazırlığını təkmilləşdirmək üçün 2011-2012-ci illərdə Türkiyədə "Jandarm zabit təməl kursu"nu keçib. Qeyd edim ki, bu günə kimi zabit şərəf və ləyaqətini hər şeydən üstün tutaraq müxtəlif vəzifələrdə məsuliyyətlə xidmət edən mayor R.Ramazanov hazırda hərbi hissənin maddi-texniki təminat xidmətlərində silah xidmətinin rəisi vəzifəsindədir.

O, Vətən müharibəsi iştirakçısıdır. Belə ki, 44 günlük Vətən müharibəsi zamanı döyüş əməliyyatlarına cəlb olunan şəxsi heyətin silah-sursatla təmin olunmasının təşkilində zəhməti danılmazdır. Hərbi hissə komandanlığı tərəfindən müsbət xarakterizə olunan zabit keçdiyi şərəfli xidmət və döyüş yolunda fərqləndiyinə, funksional vəzifələrinin icrasına məsuliyyətlə yanaşdığına, cari ildə xidməti-vəzifə borclarını layiqincə yerinə yetirdiyinə, şəxsi nümunə, yüksək hərbi intizam nümayiş etdirdiyinə görə Daxili Qoşunlar Günü münasibətilə "Xidmətdə fərqləndiyinə görə" döş nişanı ilə təltif olunub.

"Əsgər" qəzeti olaraq biz də öz növbəmizdə hərbi qulluqçumuza həm həyat, həm də xidmət yolunda daim irəliləyiş və müvəffəqiyyətlər arzulayırıq.

**baş leytenant Nigar Ağayeva**

*idman*

## ÇOXNÖVÇÜLÜK YARIŞI KEÇİRİLİB

Daxili işlər nazirinin müavini - daxili qoşunların komandanının müvafiq əmrinə əsasən, may 7-də Daxili Qoşunların Ali Hərbi Məktəbində qoşunların birinciliyi uğrunda çoxnövçülük üzrə yarış təşkil olunaraq keçirilib. Yarışda Ali Hərbi Məktəbdən, 99713, 67987, 25031, 16075 və 16076 saylı hərbi hissələrdən 6 komanda, ümumilikdə, 36 nəfər hərbi qulluqçu iştirak edib. Şəxsi birinciliyin nəticələri aşağıdakı kimi olub:




**100 m məsafəyə qaçış üzrə:**

I yer- MAXE əsgər Əli Qəhrəmanov (99713 saylı hərbi hissə);
II yer – MAXE əsgər Şirxan Yaqubov (16075 saylı hərbi hissə);
III yer - MAXE çavuş Əhməd Bağırov (67987 saylı hərbi hissə).

**1000 m məsafəyə qaçış üzrə:**

I yer – kursant Asif Məmmədov (Ali Hərbi Məktəb);
II yer - MAXE əsgər Əli Qəhrəmanov (99713 saylı hərbi hissə);
III yer - MAXE çavuş Rövşən Həsənov (67987 saylı hərbi hissə).

**Gimnastika üzrə:**

I yer – baş leytenant Seymur Abdullayev (16076 saylı hərbi hissə);
II yer – kursant Asif Məmmədov (Ali Hərbi Məktəb);
III yer – MAXE çavuş Sübhan Əlizadə (16076 saylı hərbi hissə).

Çoxnövçülük üzrə yarışda komanda birinciliyində 16075 saylı hərbi hissə 1-ci, 99713 saylı hərbi hissə 2-ci, Ali Hərbi Məktəb isə 3-cü yerə layiq görülüb. Yarışın sonunda uğurlu nəticə göstərən komandalar təltif edilib.

**Mətbuat xidməti**

## HƏRBİ XƏBƏRLƏR -YENİLİKLƏR-

### Türkiyə yerli döyüş tankının seriyalı istehsalına başlayacaq

Türkiyə iki il ərzində yerli "ALTAY" döyüş tankının seriyalı istehsalına başlayacaq. Ordu.az-ın məlumatına görə, "ASELSAN" tərəfindən hazırlanan və həyati əhəmiyyətli tank mühafizə sistemlərindən biri olan yerli aktiv mühafizə sistemi (AKKOR) də "ALTAY" tankına inteqrasiya olunacaq. Bu sistem "Javelin" kimi tank əleyhinə raketlərə qarşı davamlıdır.

Tankın atəş məsafəsi 8 kilometrdir.



Dördnəfərlik ekipajla birlikdə tankın çəkisi 65 tondur.

"ALTAY" tankının mühərrik gücü 1500 at gücünə bərabərdir. Mühərrikin gələn il kompleks şəklində buraxılması planlaşdırılır.

## Allah rəhmət eləsin

Daxili Qoşunların komandanlığı polkovnik Rafət Mustafayevə **anasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

67987 saylı hərbi hissənin komandanlığı baş leytenant Şahmar Ocaqova **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

TƏSİSÇİ:
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Anar Əhmədov

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000